# Beynəlxalq konfransda Azərbaycanın insan hüquqları sahəsində təcrübəsindən bəhs olunub

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı Beynəlxalq Ombudsmanlar İnstitutunun (IOI) Pakistanın Lahor şəhərində keçirilmiş Asiya Regional İclasında və "Ombudsman təsisatları vasitəsilə qanunun aliliyinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda iştirak edib.**



Ombudsman Aparatından AZƏRTAC-a verilən məlumata görə, konfransda "Qanunun aliliyini əlçatan etmək: Ombudsman xalqla hökumət arasında körpü kimi" mövzusunda keçirilən sessiyada çıxışı zamanı Aparat rəhbəri ombudsman və milli insan hüquqları təsisatlarının qanunun aliliyinin təşviqində mühüm rol oynadığını bildirib. Azərbaycanda Ombudsman təsisatının yaradılmasının insan hüquqlarının qorunması, eləcə də ölkədə qanunun aliliyinin təmin edilməsi istiqamətində atılmış ən mühüm addımlardan biri olduğu qeyd edilib.

Aparat rəhbəri Azərbaycan ombudsmanının insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində fəaliyyəti barədə ətraflı məlumat verib, işgəncələrə qarşı milli preventiv mexanizm, informasiya əldə etmək hüququnun, əlilliyi olan şəxslərin və uşaq hüquqlarının təşviqi, müdafiəsi və təmini, həmçinin bərabərlik hüququnun təmini və ayrı-seçkiliyin qarşısının alınması üzrə müstəqil monitorinq mexanizmi kimi fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Müvəkkilin beynəlxalq təşkilatlarla əməkdaşlığa əhəmiyyət verdiyini bildirən A.Səfixanlı Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsinin qanunun aliliyi hesabatına Azərbaycan ombudsmanının bu istiqamətdə həyata keçirdiyi fəaliyyətin müsbət təcrübə kimi qiymətləndirildiyi barədə danışıb.

Eyni zamanda beynəlxalq münaqişələrin beynəlxalq hüquqa, qanunun aliliyinə hörmət prinsiplərinə əsasən həll edilməli olduğu halda, ölkəmizin də uzun illər ərzində ədalətsizliklərə və ikili standartlara məruz qaldığı, torpaqlarımızın işğal olunduğu, bir milyondan çox insanın fundamental hüquqlarının pozulduğu diqqətə çatdırılıb. Vətən müharibəsi nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etdiyi, bir milyondan çox insanın pozulmuş hüquqlarını bərpa etdiyi və eyni zamanda beynəlxalq təşkilatların müvafiq qərarlarının icrasını təmin etdiyi, hazırda regionda sülhün təmin olunması istiqamətində mühüm addımların atıldığı qeyd edilib.

Aparat rəhbəri ombudsman tərəfindən İkinci Qarabağ müharibəsi zamanı və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərimizdə faktaraşdırıcı missiyaların həyata keçirildiyini, həmin missiyaların yekunlarına dair hesabatların hazırlanaraq beynəlxalq təşkilatlara və xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarına ünvanlandığını qeyd edib.

Azərbaycan.- 2025.- 10 oktyabr (№218).- S.9.